Xalq qəzeti .- 2022.- 2 dekabr.

## Teatr festivalı

**Noyabrın son həftəsində Azərbaycan Dövlət Akademik Musiqili Teatrı "Şuşa ili"nə həsr olunmuş II "4.4 Qısa Tamaşalar Festivalı" na evsahibliyi etdi. Bu mədəni aksiya çərçivəsində yerli və əcnəbi tamaşaların nümayişi əsl bayrama çevrildi. Festivalın bağlanış-təltifetmə mərasimi də bu sənət ocağında keçdi.**





# "Şuşa ili"nə sənət töhfəsi

Xatırladaq ki, festivalın təşkilində əsas məqsəd Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən və böyük Zəfərlə başa çatan Vətən müharibəsində qəhrəmanlarımızın şücaətini əks etdirən bədii, teatral bir salnamənin yaradılması idi. Sənət yarışmasının bu ünvanda keçirilməsi də təsadüfi deyildi.

Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa erməni vandallığının qurbanı olduğu kimi, ölkəmizdə bu, ilk milli teatr binasını da düşmən xalqın qaniçənləri iki dəfə yandırıblar. Birinci dəfə əsaslı bərpa edilən teatr ikinci dəfə yenidən tikilib. Bununla da Azərbaycan xalqının teatr sevgisi ermənilərin sənət qənimliyinə üstün gəlib. Ermənilərin 1 əsrlik üzqaralığına şahidlik edən bu tarixi binada keçirilən festival və onun təntənəli bağlanışı xalqımızın teatr mədəniyyətinə yüksək bağlılığının növbəti nümayişinə çevrildi.

Bu axşam da tanınmış simalar, sənət adamları, media nümayəndələri bu teatrda bir arada idilər. Musiqiçilər qrupu qonaqları teatrın foyesində şən melodiyalarla salamlayırdılar. Dalğa-dalğa yayılan ritm və melodiyalar gözəl aura yaradırdı. Qonaqlar burada baxdıqları tamaşaları müzakirə edə-edə teatrın tamaşa salonuna keçirdilər.

Mərasim iştirakçılarını salamlayan Mədəniyyət naziri Anar Kərimov teatrsevərləri belə bir sənət bayramında görməkdən məmnunluğunu bildirərək dedi: "İkinci ildir ki, bu teatr təntənəsi keçirilir. Ötəndəfəki ilk festival şanlı qələbəmizə həsr edilmişdi. Elə biz də zəfərdən ruhlanaraq onun adını "4.4..." qoyduq. Həm də koronavirus pandemiyasının səngidiyini qeyd etdik. COVİD-19 bir çox sahələrə, eləcə də mədəniyyətə və teatra da mənfi təsir göstərdi. Beləliklə, teatr cameəsi iki illik fasilədən sonra yenidən canlandı, tamaşalarımız bayram ovqatı yaratdı. İlk festival o qədər uğurlu oldu ki, onu hər il keçirməyi qərara aldıq".

Bildirildi ki, indiki festivalda bir sıra ölkələrdən mütəxəssislər iştirak edib. Tbilisi Akademik Teatrının bir tamaşası müsabiqədənkənar göstərilib. Bununla festival milli teatr layihəsi çərçivəsini aşıb. Hədəf həm də regionlardakı teatrları stimullaşdırmaq, onlara Bakının teatr səhnəsində və festivalda platforma – səhnə verərək min bir zəhmətlə hazırladıqları tamaşaları, aktyorluq fəaliyyətlərini dəstəkləməkdir. Bu il də festivalın uğurla keçməsi fərəh doğurur.

Festival çərçivəsində start verilən "Mədəni gənclik" layihəsi üzrə Dövlət İqtisadiyyat Universiteti ilə əməkdaşlıq ediləcək. Hədəf budur ki, tələbələr teatr tamaşalarına gəlsinlər, səhnə möcüzələrinin pərdəarxası sirləri ilə tanış olsunlar, cəmiyyətə, gənclərə teatra sevgi aşılansın.

Daha sonra söz festivalın münsiflər heyətinə verildi. Jürinin sədri, Əməkdar incəsənət xadimi, professor İsrafil İsrafilov, teatrşünas Elçin Cəfərov və digər sənət biliciləri festivalın davam etdiyi 6 gün ərzində həyəcan dolu anlar yaşadıqlarını, 12 əsərin nümayişindən zövq aldıqlarını söylədilər. Onlar müxtəlif teatr kollektivlərinin, qrupların, fərqli janrların, üslubların, təcrübəli rejissorların olduğunu xüsusi vurğuladılar.

Türkiyənin Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru, Azərbaycan Respublikasının Xalq artisti Cahangir Novruzov festivalın açılış və bağlanış mərasimlərinin milli teatrımızın ilk beşiyi olmuş bu tarixi binanın səhnəsində keçirilməsini yüksək dəyərləndirərək dedi: "Möhtəşəm təqdimatlar da, daha yaxşı ola biləcək tamaşalar da var idi. Püxtələşməmiş çalışmaların içərisində düşüncə cücərtilərinin olması ümid yaratdı. Teatr dünyanın ən kudsal yalanıdır. Dürüstlük adına söylənən yalan zehinlərdə olan köpüyü, tozu silmək üçündür".

Teatr Xadimləri İttifaqının üzvü, professor Əli Əmirli, teatr tənqidçisiAydın Talıbzadə festivalın teatrın və teatrsevənlərin mövcudluğunu qoruması yolunda növbəti uğur olduğunu qeyd etdilər. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əliqismət Lalayev yarışma iştirakçısı olan teatr fədailərinə yeni nailiyyətlər arzuladı.

Sonda nəticələr açıqlandı. Azərbaycan Dövlət Pantomim Teatrının hazırladığı "Şinel" tamaşası 1-ci yerə layiq görüldü. Həmin səhnə əsərinin rejissoru Ceyhun Dadaşov Gənc Ekspertlərin mükafatını aldı. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnələşdirdiyi "İnanıram" (rejissor Elşad Rəhimzadə) tamaşası 2-ci yeri tutdu. Üçüncü yer "Səhnə" teatrında rejissor Namiq Ağayevin ərsəyə gətirdiyi "Qurd əfsanəsi" tamaşasına verildi. Gəncə Dövlət Kukla Teatrının aktrisası Zülfiyyə Əliyeva "Çamadanlar" tamaşasında oynadığı rola görə təltif edildi. Müstəqil xarici teatr tənqidçilərinin qərarı ilə "Müsabiqədənkənar proqramın ən yaxşı tamaşası" nominasiyasında mükafat Dövlət Akademik Musiqili Teatrının "Anamın kitabı" (rejissor İradə Gözəlova) əsərinə verildi.

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri maddi-mədəni irs şöbəsinin müdiri Fərəh Acalova bütün iştirakçıların festivaldakı çıxışının bir sənət uğuru olduğunu vurğulayaraq qalibləri təbrik etdi. Sənət həftəsi alqışlarla sona çatdı.

***Fidan HÜQUQQIZI***